# SELEKTİV ABORT VƏ ONUN TƏSİRLƏRİ

*Övladınızı öldürməyin!*



**Selektiv abort – cinsi mənsubiyyətə görə hamiləliyin *(adətən, 12-ci həftəsindən sonra)* süni pozulmasıdır.**

**Əksər hallarda qadını selektiv aborta məcbur edən, ərinin və ya onun yaxın qohumlarının psixoloji təzyiqi olur; bəzən isə qadınların özləri bunu istəyir.**

Son illər ölkədə müşahidə olunan demoqrafik proseslərin təhlili yeni doğulmuşlar arasında oğlan uşaqlarının üstünlük təşkil etməsini göstərir, bu da hər 100 qız üçün 114 oğlanın doğulmasıdır və bioloji normadan (yeni doğulmuş hər 100 qıza 105-107 oğlan) xeyli artıqdır.

**Təbii cinsi tarazlığın pozulması cəmiyyət, qadının sağlamlığı və gələcəkdə doğulan uşaqlar üçün təsirsiz ötmür.**

Heç bir abort izsiz keçmir. Ancaq selektiv abort qadının orqanizmi üçün həm psixoloji stress, həm də fiziki zorakılıqdır. Bu səbəbdən onun həyat və sağlamlığına ciddi təsir göstərir; "Abortdan sonrakı sindrom" adlanan vəziyyətin yaranması ehtimalı daha da yüksəlir. Bu, abort nəticəsində ortaya çıxa biləcək psixoloji /psixi vəziyyətlərin və digər (somatik) fəsadların kombinasiyasıdır.

# Psixoloji/psixi vəziyyətlər



- ✓ *Depressiya, günah hissi;*
- ✓ *Seksual pozuntular, ərinə nifrət hissi;*
- ✓ *Daha bir hamiləliyə meyillənmə və ya yenə hamilə qalmaq qorxusu;*
- ✓ *Anoreksiya (iştahanın olmaması və qidalanmadan imtina etmək);*
- ✓ *Uşaqlarla əlaqədar gecə qarabasmaları;*
- ✓ *Əhval-ruhiyyənin tez-tez dəyişməsi və s.*

# Digər fəsadlar

- ✓ *İnfeksion fəsadların ehtimalı böyükdür;*
- ✓ *Uşaqlığın deşilməsi ehtimalı;*
- ✓ *Həyat üçün təhlükəli ciddi qanaxmalar;*
- ✓ *Gələcəkdə uşaqlıqdankənar hamiləliyin ehtimalı bir neçə dəfə artır, bu da qadının həyatı üçün ciddi təhlükədir;*
- ✓ *Bəzi hallarda sonsuzluq yarana bilər;*
- ✓ *Sonrakı hamiləlikdə həm doğuş fəsadlarının, həm də yenidoğulmuşun sağlamlığında müəyyən problemlərin (xəstələnmə, şikəstlik, ölüm halları) baş verməsi ehtimalı artır;*
- ✓ *Selektiv aborta müraciət edən qadınlar nisbətən yaşlı olduğundan (bir neçə uşaq anası), yuxarıda sadalanan fəsadlar daha ağır keçə bilər;*
- ✓ *Abort – xəstəliyin olmadığı halda edilən və sağlamlığa zərərli olan yeganə əməliyyatdır.*

**Abort, həmçinin selektiv abort yalnız müəyyən istisna hallarda edilə bilər (məsələn: hamiləliyin davam etdirilməsi qadının həyatına təhlükə yaratdıqda, sosial göstərişlər olduqda, döldə cinslə bağlı irsi xəstəliklərin riski yüksək olduqda və s.)!**

***Sonradan ömür boyu aborta görə peşman olmamaq üçün bu barədə yaxşı düşünün, çünki hələ doğulmamış bir uşağın taleyi/həyatı məsələsi həll edilir.***



İSİM
İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ
Bakı, AZ1122, H. Zərdabi küç., 96
Tel: 431-60-88, Faks: 430-52-85
office@isim.az www.isim.az

Vərəqə "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının həyata keçirilməsi üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planına əsasən, Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanaraq çap edilmişdir.